# Xalq öz dühaları ilə dünyada tanınır

"Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini yüksəltmək deməkdir"

***Ümummilli lider Heydər Əliyev***

Dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin zəngin irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması, yaradıcılığının tədqiqi və təbliği, dünya miqyasında tanıdılması ümummilli lider Heydər Əliyevin fəaliyyəti ilə bilavasitə bağlıdır. Ötən əsrin 70-ci illərində ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illiyinin UNESCO səviyyəsində qeyd olunması təkcə böyük şairin adının və irsinin deyil, ümumilikdə Azərbaycanın, respublikamızın mədəniyyətinin, ədəbiyyatının təbliği baxımından böyük əhəmiyyət kəsb edirdi.




Məlum olduğu kimi, 1968-ci ildə Azərbaycan mədəniyyət və ədəbiyyat xadimlərinin bir qrupu Suriyada səfərdə olarkən Nəsiminin Hələb şəhərindəki qəbrini taparaq ziyarət etmiş, Xalq şairi Rəsul Rza Bakıya qayıtdıqdan sonra "Ədəbiyyat və incəsənət" qəzetində "Cahana sığmayan şairin qərib məzarı" adlı məqalə dərc etdirmişdi. 1969-cu ildə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi seçilən Heydər Əliyev, sözsüz ki, bu barədə məlumatlı idi.

Heydər Əliyev 1970-ci ildə Suriya Ərəb Respublikasında səfərdə olarkən Prezident Hafiz Əsədə Hələb şəhərinə getmək və İmadəddin Nəsiminin məzarını ziyarət etmək istədiyini söyləyir. Həmin dövrün hadisələrini tədqiq etmiş tarixçi alim, professor, Milli Məclisin deputatı Musa Qasımlı qeyd edir ki, Azərbaycan rəhbərinin istəyi yerinə yetirilir və nümayəndə heyəti Hələbə gəlir. Növbəti gün onları hoteldə bir neçə saat gözlədirlər. Bu arada yerli hakimiyyət orqanlarının nümayəndələri məzarı taparaq sahmana salırlar. Ondan sonra Heydər Əliyev məzarı ziyarət edir.

Heydər Əliyev Bakıya döndükdən sonra Nəsiminin tanıdılması, 600 illik yubileyinin keçirilməsi, haqqında kinofilmin çəkilişi və s. məsələləri gündəmə gətirir. Nəsiminin yubileyinin keçirilməsi barədə məsələ Azərbaycan KP MK Bürosunun 1970-ci il 27 mart, 1971-ci il 24 mart, 29 aprel, 23 iyul tarixli iclaslarında müzakirə edilir. Bundan sonra Heydər Əliyev Nəsiminin yubileyinin ümumittifaq və ümumdünya miqyasında qeyd edilməsi üçün Moskvaya – SSRİ rəhbər qurumlarına – Sov. İKP MK-ya, SSRİ Nazirlər Sovetinə müraciət edir. Bu proses bir müddət uzansa da, sonda yubileylə bağlı müvafiq qərarlar qəbul olunur.

Heydər Əliyevin tapşırığı ilə akademik Həmid Araslı və alim Araz Dadaşzadə Suriyaya ezam edilirlər. Onlar Nəsiminin məzarının vəziyyəti ilə tanış olurlar və bərpası məsələsini qaldırırlar. Heydər Əliyevin səyləri ilə məzar bərpa edilir. Nəsiminin portretinin yaradılması ilə bağlı müsabiqə elan edilir. Azərbaycan KP MK Bürosunun 1972-ci il 2 fevral, 1973-cü il 13 mart və 28 avqust tarixli iclaslarında həmin məsələ müzakirə edilir. Tədbirlər planı işlənib hazırlanır. 1973-cü ilin sentyabrında Azərbaycanda yubiley toplantısı keçirilir. Yubileyə dünyanın 30-dək ölkəsindən qonaqlar gəlir.

Heydər Əliyev 1973-cü il sentyabrın 14-də Nəsiminin 600 illiyi şərəfinə Azərbaycan SSR Nazirlər Sovetinin təşkil etdiyi qəbulda söylədiyi nitqdə həmin hadisələrin əhəmiyyətini belə qeyd etmişdi:

"Bu günlər qədim Azərbaycan torpağında böyük bayramdır, poeziya bayramı, ədəbiyyat bayramı, bədii söz bayramıdır, ürəklərə sevinc bəxş edən sənət bayramıdır. Bu bayram böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 600 illiyi ilə əlaqədardır. Öz nəsillərinə gözəl bir irs qoyub getmiş bu müdrik insanın anadan olduğu vaxtdan 600 il keçmişdir. Budur, indi onun vətənində nəsillər şairin fərəhli yubileyini dərin minnətdarlıq hissi ilə qeyd edirlər.

Bəşəriyyət özünün ən yaxşı nümayəndələrini, onu mənəvi cəhətdən zənginləşdirən simaları həmişə yüksək qiymətləndirmişdir. Bəşər tarixinin müxtəlif mərhələlərində bir çox görkəmli şəxsiyyətlər yetişmişdir. Hər bir xalq həmin dühaların tərəqqiyə, işıqlı həyata, xoş güzərana çağırışları ilə haqlı fəxr edir. Azərbaycan xalqı öz böyük övladlarının – Nizaminin, Xaqaninin, Füzulinin və başqalarının adlarını iftixarla çəkir. Bu gün isə biz Azərbaycan və dünya poeziyasının parlaq ulduzu İmadəddin Nəsiminin yubileyini qeyd edirik.

Lakin Nəsiminin yaratdığı, qoyub getdiyi irsə heyran olduğumuzu bildirərkən biz gərək onun ikinci yaranışından da danışaq. Yalnız bizim zəmanədə Nəsimi əsrlərin dərinliklərindən qaldırılmışdır və o, layiqincə qiymətləndirilir. Bu gün Nəsimi dünya qarşısında bütün əzəməti ilə ucalır. O, elə bir insan idi ki, hələ uzaq keçmişlərdə cəhalətpərəstlərdən qorxmayıb zülmə, riyakarlığa, dini mövhumata etiraz səsini ucaldır, çox-çox irəliyə nəzər salırdı. Görkəmli Azərbaycan şairi, müasirimiz Səməd Vurğun Nəsimi haqqında belə demişdir: "Tarixlər boyunca qaldı yadigar, ölməz fikirlərin, ölməz sözlərin"...

Bizim hamımızı, Nəsimi yubileyi münasibətilə Azərbaycan torpağına toplaşan adamların hamısını mütərəqqi ideallar, bəşəriyyətin ən yaxşı zəkalarının əsrlər boyu həsrətində olduqları əmin-amanlıq və dostluq şəraitində yaşamaq arzuları birləşdirir...".

Nəsiminin yubileyi həmin il Parisdə, UNESCO-da qeyd edildi, Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı, Fikrət Əmirovun "Nəsimi haqqında dastan" baletinin tamaşası təqdim olundu. UNESCO-nun "Kuryer" jurnalında Nəsimi haqqında geniş məqalə dərc edilmişdi. Həmin dövrdən etibarən şairin yaradıcılığı ilə bağlı araşdırmalar da genişləndi. Şairin həm Azərbaycan dilində, həm də başqa dillərə tərcümə edilmiş kitabları, haqqında elmi tədqiqat əsərləri, biblioqrafiya işıq üzü görmüş, sərgilər açılmışdı. Azərbaycan ədəbiyyatında Nəsimi haqqında əsərlər – Xalq yazıçısı İsa Hüseynovun "Məhşər" romanı, xalq şairləri Rəsul Rzanın "Son gecə", Qabilin "Nəsimi" poemaları, Əli Kərimin "Şəhidliyin zirvəsi", Əliağa Kürçaylının "Nəsimi" və b. şeirləri yaranmışdı. 1973-cü ildə "Nəsimi" filmi (rejissor Həsən Seyidbəyli) ekranlara çıxdı. Rəssamlarımız tərəfindən Nəsiminin portretləri, onun həyatına həsr olunmuş tematik tablolar işləndi, 1979-cu ildə Bakıda şairin möhtəşəm abidəsi (müəllif Tokay Məmmədov) ucaldıldı. Bakının rayonlarından birinə Nəsiminin adı verildi, şairin xatirəsi şəhər və rayonlarda küçə, müəssisə-təşkilat və s. adlarda əbədiləşdirildi.

Bütün bunlar, ulu öndərin dediyi kimi, Nəsiminin yenidən doğuluşu, Nəsimi irsinin intibahı idi. Ümummilli lider sonralar həmin əlamətdar günləri xatırlayarkən demişdi: "...Tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq.

Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir".

***

Ulu öndərin mədəni irsimizə, böyük söz-sənət xadimlərinin xatirəsinə diqqət və qayğısı bu gün ölkə rəhbərliyi tərəfindən davam etdirilir. Prezident İlham Əliyevin Nəsiminin 650 illiyi və "Nəsimi ili" ilə bağlı sərəncamları bunu bir daha təsdiq edir. Nəsimi yeganə Azərbaycan şairidir ki, son yarım əsrdə yubileyi iki dəfə UNESCO səviyyəsində qeyd edilib. 2017-ci ilin 18 mayında Parisdə, təşkilatın baş qərargahında böyük şair və mütəfəkkirin vəfatının 600-cü ildönümü münasibətilə keçirilən mərasim dünya poeziyası tarixində parlaq iz qoymuş Nəsimiyə bəşəri ehtiramı bir daha nümayiş etdirdi. Həmin mərasimdə qeyd edildiyi kimi, mənəvi azadlığa, bəşəri dəyərlərə, insana sevgiyə çağırış Nəsimi yaradıcılığının himni idi. Altı əsr öncə edam edilən Nəsimi dünyadan köçmədi. Dünya poeziyası, ədəbi və fəlsəfi fikrində öz abidəsini ucaltmağa müvəffəq olmuş şair insanların qəlbində yaşamaqda davam edir.